

**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



> ***Atillanın qılıncı göydən düşüb, Koroğlunun qılıncı göydən düşüb, Bilqamışın da baltası göydən düşübg(çünki hələ qılınc kəşf edilməmişdi). Qılınc da şumerlər Sibirə köç etdikdən sonra dəmir filizin geniş emal edilməsindən sonra kütləviləşəcəkdi (Dəmirçi Debet dastanını yadına sal, həlləliksə Urukun ustaları əmud, balta, xəncər, bıçaq düzəldə bilirdilər) və s. "Dədə Qorqud dastanı"nda da Buğac Buğa ilə savaşaraq onu öldürür. "Bilqamış" dastanında da Bilqamış buğa ilə savaşaraq onu öldürür***

əvvəli ötən sayımızda

*Təəssüf ki, troyalıların qisasını alacaq Tomris ana yox idi(-Tomris – temir sözündəndir, yəni dəmir, -es, -us isə yunanca adlara əlavə edilən şəkilçidir, məsələn, Sokrat –Sokrat-es kimi. Temir-us, əslində, zəmanəsinin Dəmir ledisi idi ! Yunanlar ona Tomris deyirdilər). Çünki Troya şahzadələrinin anaları da, həyat yoldaşları da Helenlər, Afroditalar idi. Onlar isə türk olmadıqları üçün qisas ala bilməyəcəkdilər.*

*Bu məsələ "Dədə-Qorqud dastanı"nda çox gözəl verilib. Bir çoban yaylağa köçərkən göldə çimən bir mələkdə təsadüfi, qeyri-qanuni əlaqədə olur (oxu: gözəl, ancaq türk olmayan). Düz bir il sonra həmin yerdən yenidən keçərkən mələk ona bu əlaqədən olan uşağı verərək deyir ki, bu, sənin oğlundur. Sən Oğuz elinin başına bəla açdın. Həmin uşaq Təpəgöz idi. Oğuz eli bu Təpəgözdən çox bəlalar görür, nəhayət, Basat onu tək gözündən vuraraq öldürür.*

Bu süjetin mənəvi-tərbiyəvi əhəmiyyəti odur ki, yad qızlar nə qədər gözəl olsalar da, onlarla evlənməyin. Çünki belə nikahdan olanlar sonda dövlətə, vətənə xəyanət edirlər. Elə indi olduğu kimi, Qarabağ müharibəsində təpəgözlərimizin nə qədər çox və təhlükəli olduğunu bir daha gördük. Ancaq ədalət naminə deyək ki, bu təpəgözlər təkcə anaları erməni olanlar deyildi, elə öz milli təpəgözlərimiz də kifayət qədərdi. Elə Hun imperatoru Tuman (Duman), yaxud Teoman (Çin mənbələrinə görə) xan da oğlu Meteni ona görə öldürmək istəyir ki, bunu çinli arvadı tələb edirdi. Mete ölsə, hunların hökmdarı çinli qızının oğlu olacaqdı. YəniTəpəgöz olacaqdı. Beləliklə, çinlilər onun əli ilə Hun imperiyasını dağıdacaqdılar. Ancaq bu hadisədə ilahi iradə hunların yanında oldu. Eyni xoşbəxtlik nədənsə troyalıların bəxtinə yazılmayıbmış. Görünür, bu, Barsın suçu idi. Başqasının arvadını oğurlamaq türkə yaraşan iş deyil.

İbrətamiz hadisədən çıxan birinci nəticə budur ki, troyalıların at sevgisi onlara baha başa gəlir. İkinci, atın troyalılarda müqəddəs heyvan olduğu anlaşılır. Taxta atı belə yandırmırlar. Çünki bu, Tanrının qəzəbinə səbəb ola bilərg Çünki "Tay" (day) sözünün qədim türkcədə "göydən enən" mənasına gəldiyini bilirdilər vəg Troya-türk ələqələndirməsində növbəti əsas halqa hər iki toplumda at oğurluğunun ölümlə cəzalandırılmasıdır. Biz yuxarıda Çin mənbələrinə istinadən yazmışıq ki, qədim türklər beş cinayətə görə ölüm cəzasına məhkum edilə bilərdilər. Bunlardan biri də at oğurluğuna görə idi. Elə indinin özündə də Azərbaycanda bir adamı aşağılayıb təhqir etmək istəyəndə ona "at oğrusu" deyirik. Şüuraltı yaddaş bizə diktə edir ki, at oğrusu, törəyə görə, ən alçaq adam hesab edilir. Gəlin görək troyalılarda bu necə idi. Bu izahatımızı ulu sərkərdə və dahi dövlət xadimi Muncuk (Boncuk) oğlu Atillanın sözləri ilə başlayaqg "Türkün həmişə üç arzusu olu:at, ət, arvad."Yəniat minmək, ət yemək və arvad almaq. Bu üç arzunun dalınca türklər hər cür macəraya sürükləniblər. Elə Atillanın özünü də onun bu zəifliyindən istifadə edərək 453-cü ildə öz sarayında qadın əli ilə zəhərləyib öldürüblər.

***Elə Paris də Atillanın ulu əcdadı hesab edilə bilər. Əgər Atillanın adının mənası Atıl-qan, cəsarətli, hücum edən deməkdirsə, Paris də əslində Barsdır. Yəni-qaplan. Qədim türklər qaplana bars deyirdilər. Elə bu gün də bu söz bəzi türk tayfalarının dilində canlı olaraq işlədilir. Atillanın ailəsi dörd qardaşdan ibarət idi:Rua, Oktar, Aybars və Muncuk, yaxud Boncuk. Boncuk döyüşlərdə öldüyü üçün Atillanı əmisi Rua böyütmüşdü. Elə Troya hökmdarı Priamın da iki oğlu vardı. Yunan mənbələrinin göstərdiyi kimi desək, Hektor və Paris. Amma əslində Oktar və (yənibu adlar türk adları idi və Atilla dövrünə qədər ad olaraq verilirdi) Bars. Bars sözünü izah etdik. Bu, cəsur və çevik heyvanın adından götürülüb.***

Elə indi övladlarımıza Aslan, Şir-Aslan (şir farsca aslan deməkdir) adları verilir. Oktar isə oxçu deməkdir. Dilimizdə-dar, -dər, sözdüzəldici şəkilçidir. Məsələn, ev –evdar, heyvan –heyvandar. Burada isə ox (ok)- Okdar, yəni-Oxçu isimdən düzəldilmiş xüsusi addır. Barsın qadın sevgisi də, Atillanın dediyi kimi, elə milli keyfiyyətimizdir. Sparta hökmdarı ilə müqavilə bağlama mərasimində onun gənc və gözəl arvadı Helenaya vurulur və onunla eşq macərası yaşayır. Troyaya qayıdanda isə qardaşı Hektordan (Oktardan) gizli olaraq Helenanı qaçıraraq gəmidə gizlədir. Hektor bundan xəbər tutanda gəminin dərhal geri dönməsi üçün əmr verir. Bildirir ki, atası Priam bunu bağışlamaz. Təzəcə Afinaya qarşı ittifaq bağladıqları Sparta hakimini yenidən düşmənə çevirmək əsla olmaz. Ancaq Parisin yalvarışlarına dözə bilmir. Bu zaman iki qardaş arasında belə bir dialoq yaşanır. Paris deyir ki, sən mənim qardaşımsan və bir dəfə atamın atını oğurlayanda məni müdafiə etmisən. İndi də sənin gücünə arxalanıram, xahiş edirəm məni yenə qoru. Kiçik qardaşının bu yalvarışı Hektoru yumşaldır. Beləliklə, təqribən 1600 il əvvəl (b.e.ə. XII əsr) Troyanın sonunu gətirən "arvad" bəlası sonradan 453-cü ildə Atillanın və Hun imperiyasının da sonunu gətirəcəkdi... Görünür, at oğurluğu o qədər ciddi cinayət idi ki, Priam öz oğlu olmasını baxmayaraq, Parisi belə cəzalandıracaqdı. Hektor olmaydıg İndi tarixdə iz buraxan bu hadisələrdən çox maraqlı filmlər çəkilir. Bəzən belə filmlərdə çox ciddi təhriflərə, hətta uydurmalara geniş yer verilir. Filmi kim çəkirsə, tarixi gerçəkləri öz milli maraqlarının xeyrinə saxtalaşdırır. Elə tarixin atası hesab etdiyimiz Heredot da etiraf edir ki, "tarix qədər subyektiv elm yoxdur", yəni qələm kimin əlindədirsə, o da öz bildiyini, yaxud inandığını yazır. Hələ heç qəsdən təhrifetmələri demirəm. Ancaq "Troya" filmində ssenari müəllifi və rejissor, görünür,ədalətli olmağa çalışıbg Yunan süvarilərini üzəngi ilə çəkməyib. Çünki o vaxt üzəngi hələ kəşf edilməmişdi. Bu hadisədən ən azı 400 il sonra üzəngini skiflər kəşf edəcəkdilərg Bizim ruscadan tərcümədə Troya kimi tələffüz etdiyimiz sözün orijinalı əslində Turovadırg Kim bilir, bəlkə də Tur+oba birləşməsindən meydana çıxıb. Elə Tur+an sözünün də, Tur+k sözünün də kökü tur+tör sözündəndir, mənası artan, törəyən deməkdir! Elə kişidən ötürülən "sperma" sözünün türkcəsi də tor+um-dur, yəni törədici, başlanğıc verən, törədən. Trakya, Batı Trakya, Eg-e ("eg", yaxud "ög" sözünün ana olduğunu "ög-ey ana" səsləşməsiylə yuxarıda izah etmişdik) vəs. kimi sözlər də troyalılardan bizə qalan türk sözləridir.

## "Bilqamış" dastanında atlar

Dünyanın ən qədim dastanı olan, ən azı 6 min il bundan öncə yarandığı güman edilən bu dastanın adı nə Gilqameşdir, nə Qılqames, nə dəVilqamesdir. Bu dastanın adı "Bilgəmiş"dir və türkcədir. Bilgə-biləyən, hər şeyi bilən. Bil+-Qamu+(s), yəniqamuyu – hamıyı, hər şeyi bilən deməkdir. "Qamu" sözü elə eyni orfoqrafik formada və eyni semantik mənada orta əsr ədəbiyyatımızda mövcuddur. Türkiyə türkləri isə bu sözü bir az daha inkişaf etdirərək Kamu+oy şəklinə salıblar.

Burada kamu elə hamı, oyu – rəyi, yəni ictimai rəy mənasındadır. Kamu – oyu isə hamının səsi, yaxud fikri anlamında işlədilərək ictimaiyyət mənasını verir. Elə dastandakı süjet və hadisələr də təqribən digər türk dastanları ilə eyniyyət təşkil edir. Birincisi, Dədə Qorquddan başlayaq. Bilqamış, yəni dastanın qəhrəmanı ölümsüzlük axtarır. Bu obraz elə Dədə Qorqud dastanındakı Qorqud atanın özüdür. Qorqud Ata da ölümdən qaçır, Bilgəmiş də.Hər ikisi müdrikdir, xilasedicidir, amma hər ikisi də axırda ölür. (Dədə Qorqud xalçasını Sırdəryanın ortasına atıb oturur ki, Əzrail suyun ortasına gələ bilməz). İkinci müqayisədə Bilgəmiş Dəli Domruldur. Ədalətsizliyə etiraz edir. Dəli Domrul Əzrailin günahsız olaraq öldürdüyü gəncin qisasını almaq üçün onu axtarır, öldürmək istəyir. Bilgəmiş də dostu Enkidunun ölümünə etiraz edir. Bununla barışa bilmir və s. Başqa bir bənzətmə Enkidu – Bayandır xan bənzətməsidir. Enkidu çöldən, vəhşi heyvanların içindən gəlib, aslan südü əmib, xanlar xanı Qam xaqan oğlu Bayandır xan da deyir ki, qamışlığın Qara Aslanından kökūm var.

Atillanın qılıncı göydən düşüb, Koroğlunun qılıncı göydən düşüb, Bilqamışın da baltası göydən düşübg(çünki hələ qılınc kəşf edilməmişdi). Qılınc da şumerlər Sibirə köç etdikdən sonra dəmir filizin geniş emal edilməsindən sonra kütləviləşəcəkdi (Dəmirçi Debet dastanını yadına sal, həlləliksə Urukun ustaları əmud, balta, xəncər, bıçaq düzəldə bilirdilər) və s. "Dədə Qorqud dastanı"nda da Buğac Buğa ilə savaşaraq onu öldürür. "Bilqamış" dastanında da Bilqamış buğa ilə savaşaraq onu öldürür.

***Belə paralellərin sayını istənilən qədər artırmaq olar. Ancaq! Ancaq "Bilqamış" dastanında atlar yoxdur! Çünki o zaman Mesopotamiyada atlar yaşamırdı. Sonralar, çox-çox sonralar qlobal iqlim dəyişikliyi nəticəsində Fars körfəzindən başlayan səhralaşma Mesopotamiyaya qədər gələcək və şumerləri, yaxud sumərləri köçə məcbur edəcəkdi. Onlar heyvanlarını götürərək yararlı otlaqlara doğru irəliləyəcək, düz Sibirə qədər gəlib çıxacaqdılar. Elə "Sibir-Subar" sözü də "sumər" sözündən törəyəcəkdi. Minilliklər ərzində bu köç Mesopotamiyadan Sibirə, oradan isə geriyə davam edəcəkdi. Bu prosesdə sumerlər, yəniprototürklər Mərkəzi Asiyada atlarla tanış olacaqdılar. Müxtəlif tayfalara bölünəcək, bəzilərinə saq, bəzilərinə skif, bəzilərinə hun, bəzilərinə işguz, kimmer, ğuz, oğuz, uyğur, het, kanq və s. deyiləcəkdi. Yüzillər sonra qoyub getdikləri vətənə atlarla dönən zaman öz vətənlərində onları gəlmə kimi, işğalçı kimi qarşılayacaqdılar.***

(davamı gələn sayımızda)